# Oxu, qardaş, elə oxu ki...

## Ağdamlılar həmyerlilərinin doğma yurdda yubileyini qeyd etdilər





**Sözün həqiqi mənasında bu gün Qarabağda büsat var. Ermənistan silahlı qüvvələrinin 30 il işğal altında saxladığı yurd yerimizdə bu gün möhtəşəm bərpa və quruculuq işləri gedir. Ağır və üzücü müharibənin xarabalıqları üzərində vətən sevdalı oğullar sonsuz həvəslə, həm də yüksək zövqlə, milli memarlıq üslubuna uyğun yaşayış məskənləri inşa edirlər, yol salırlar, tunellər tikirlər.**

Faşist xislətli ermənilərin Ağdamda törətdiyi cinayətlər öz miqyasına və nəticələrinə görə daha çox nifrət doğurur. Xain və nankor qonşularımız Azərbaycanın özünəməxsus gözəlliyi ilə seçilən şəhərlərindən olan Ağdamı sanki daha amansızlıqla dağıtmış, daş üstdə daş qoymamışlar. Şəhər gerçək ruhlar diyarına çevrilmişdi.

Ağdamın bugünkü mənzərəsi isə tam fərqlidir. Şəhərdə inşa edilən yaraşıqlı yaşayış məhəllələri, parklar, xiyabanlar, binalar, infrastruktur layihələri müharibənin yaralarına ən təsirli məlhəmdi elə bil. Təsadüfi deyil ki, Prezident İlham Əliyev gərgin iş qrafikindən imkan tapan kimi Qarabağa, o cümlədən Ağdama səfər edir, burada vüsət alan genişmiqyaslı bərpa və quruculuq işləri ilə tanış olur, faydalı məsləhətlər verir, yeni layihələrin təməlini qoyur.

Yenidən qurulan Ağdamda ilk ünvan tapan məkanlardan biri Muğam Mərkəzidir. Bu möhtəşəm sənət ocağı milli-mənəvi dəyərlərimizin böyük hamisi Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü, Prezident İlham Əliyevin xeyir-duası ilə arayaərsəyə gəlib. Yeni salınan Ağdamda yaşayış evlərindən, inzibati binalardan, fabrik və zavodlardan öncə Muğam Mərkəzinin inşa edilməsi təbiidir. Çünki Azərbaycanın muğam beşiyi Qarabağ, Qarabağın toy-mağarı isə Ağdamdır. Deyirlər Qarabağda uşaqlar da muğam üstdə ağlayırlar. Burada əsən küləklərin də öz ritmi var. Durnagözlü bulaqların zümzüməsi, çayların şırıltısı, şəlalələrin çırpıntısı, göylərin gurultusu, atların kişnəməsi, günəşin doğması, həzin yaz gecələrinin rahiyəsi Qarabağda bir başqa olur, adamı ovsunlayır, ruha sığal çəkir.

Bu günlər muğamsevərlər xoş bir məramla Ağdamda bir araya gəldilər. Azərbaycan muğam sənətinin canlı əfsanəsi, Xalq artisti Mənsum İbrahimovun 65 yaşı doğulduğu Ağdamda təntənəli şəkildə qeyd olunurdu. Ağdam Rayon İcra Hakimiyyyətinin təşkilatçılığı ilə keçirilən tədbirdə Ağdamdan seçilən Milli Məclisin deputatları Elman Məmmədov, Aqil Abbas rayon ziyalıları, şəhid ailələri, qazilər, müharibə veteranları iştirak edirdilər.

Mənsum İbrahimov xalq sevgisi qazanmış böyük muğam ustadıdır. Milli-mənəvi dəyərlərimizin fədakar daşıyıcısı kimi xidmətləri böyükdür. Tədbirdə çıxış edənlər onun həyat yoluna nəzər saldılar. Bildirdilər ki, 1960-cı il oktyabrın 1-də Ağdam rayonunun İmamqulubəyli kəndində doğulub, 1982-1987-ci illərdə Asəf Zeynallı adına Bakı Musiqi Texnikumunun muğam şöbəsində, 1988-1993-cü illərdə Azərbaycan Mədəniyyət və İncəsənət Universitetinin Mədəni-maarif fakültəsində təhsil alıb. "Leyli və Məcnun" operasında Məcnunun rolunu məharətlə oynayıb. Xalq və bəstəkar mahnılarının mahir ifaçısı olan Xalq artisti Azərbaycan muğam sənətini dünyanın müxtəlif ölkələrində uğurla təmsil edir. Eyni zamanda pedaqoji fəaliyyətlə də məşğul olan sənətçi Azərbaycan Milli Konservatoriyasının professoru, Muğam kafedrasının müdiridir. 1998-ci ildə Əməkdar artist, 2005-ci ildə isə Xalq artisti adına layiq görülüb. Prezident təqaüdçüsüdür. 2010-cu ildə "Şöhrət" ordeni ilə təltif olunub.

Tədbirdə Ağdam Rayon İcra Hakimiyyətinin başçısı Vaqif Həsənov, Milli Məclisin deputatları Elman Məmmədov, Aqil Abbas və digərləri çıxış edərək yubilyara yeni yaradıcılıq uğurları arzulayıblar. Çıxışlarda xalqımızın milli-mənəvi dəyərlərinə, xüsusilə muğam sənətinin inkişafına göstərdikləri böyük qayğı və diqqətə görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıq ediblər.

Musiqi bayramına çevrilən tədbirdə respublikanın məşhur sənətçilərinin ifaları maraqla qarşılandı. Sonda yubilyar çıxış edərək xalqın sevgisindən güc aldığını, bundan sonra da muğam sənətinin inkişafı üçün çalışacağını vurğulayıb, xidmətlərinə verilən yüksək qiymətə görə dövlət başçısına təşəkkür edib.

Oxu, Mənsum, qoy "Qarabağ şikəstəsi"nin şaqraq zəngulələri Qarabağın başıqarlı dağlarında əks-səda versin. Ucadan oxu, qardaş! Qoy azad Şuşanın başıdumanlı dağları daha həsrət çəkməsin. Elə oxu ki, xarıbülbül payızda da qönçələnsin, açılsın.

*Lazım QULİYEV,*
*"Azərbaycan"*

Azərbaycan.- 2025.- 30 sentyabr (№209).- S. 12.